# SƏNƏTKAR TƏFƏKKÜRÜNÜN BƏDİİ ÜFÜQLƏRİ

**Min illərdir söz var, sözə könül verənlər, sözün işığında yol gedənlər var. Bəzən adama elə gəlir ki, daha deyiləsi yeni söz qalmayıb, bir ömür yaşayan insanla, onun həyata gəlişi və həyatdan gedişi arasında Allaha, cəmiyyətə, təbiətə sevgiylə bağlı hər şey deyilib və yazılıb. Ancaq insan təfəkkürünün və düşüncəsinin sərhədləri nəhayətsizdir. s**

Çağdaş ədəbi-bədii düşüncəmizin zənginləşməsində, təfəkkürümüzün bədii-fəlsəfi parametrlərinin qloballaşan dünyanın ölçülərinə uyğunlaşmasında, özünəməxsusluq indeksi ilə çıxış edən istedad sahiblərindən biri Sövkət Zərindir. Onun qələmə aldığı yaradıcılıq nümunələri növündən, janrından asılı olmayaraq öz tutumu və sanbalı ilə seçilir. Sövkət Zərin məxsusi ədəbi-ictimai, bədii-publisistik və bədii-fəlsəfi yaradıcılıq konsepsiyası olan yazardır. Onun insana, cəmiyyətə, dünyaya, bütövlükdə həyata baxışı lirik-psixoloji, bədii-fəlsəfi kodlarla şifrələnmişdir. Qeyri-adi həyat enerjisi, geniş və mütəhərrik təfəkkür orijinallığı, unikal ümumiləşdirmə bacarığı, həmçinin yüksək sənətkarlıq potensialı onun yaradıcılığını şərtləndirən başlıca amillərdəndir. İstər poeziyası, istər nəsri istedadın əyani təzahürüdür. O, orijinal, modern düşüncəli şair olmaqla yanaşı, həm də çox maraqlı və sənətkarlıq məziyyələri sərgiləyən nasirdir.

***Ömrünün 80-ci baharını yaşayan görkəmli sənətkarın çoxşaxəli, zəngin yaradıcılığına maraq tükənmir.***

***O, ənənəvi poeziya müstəvisində həyat həqiqətlərinə, ədəbi-bədii mətləblərə özünəməxsus orijinallıqla, yüksək fikir tutumu və poetik təravətlə yanaşan istedadlı şairlərdəndir.. Onun yaradıcılığı ideya-mənəvi axtarışların siqləti, obrazlı düşüncə zənginliyi ilə yanaşı, həm də milli-mənəvi və etik bütövlüyün poetik məxsusiliyini özündə ehtiva edir. Sövkət Zərinin bədii nümunələrində mövzu və forma dolğunluğu, emosional ifadə tərzi, poetik vasitələrin rəngarəngliyi, onun sənətkarlıq bacarığının mühüm elementləri kimi təzahür edir. Ərsəyə gətirdiyi poetik əsərlər öz istinad obyektinə, düşüncə miqyasına və bədii qaynaqlarına görə milli lirikamızın maraqlı nümunələri sırasındadır. Şair mövzunun poetik həllində lirik ovqatın səmimiyyətinə, təsvir və ifadə vasitələrinin orijinallığına, hadisələrin dramatizmindən doğan gərginliyə və bədii ümumiləşdirmənin fəlsəfi mahiyyətinə böyük önəm verir.***

Sənət müstəvisində ədəbi-bədii nümunənin mahiyyətindəki ictimai-fəlsəfi fikrin dolğunluğu, poetik özünüifadənin, özünütəsdiqin yetkinliyinə dəlalət edir. Çağdaş poeziyamızda öz səmimi ahəngdarlığı, bədii-ictimai mündəricəsi, forma və məzmun tamlığı, həmçinin poetik ümumiləşdirməsi ilə diqqət çəkən poetik numuneler sirasinda Sövkət Zərinin şeirlərini səciyyələndirmək olar.

Maraqlıdır ki, sair bu şeirlərin hamısında kövrək, həzin və dərin fəlsəfi poetikaya xas olan dil estetikasını sərgiləyir. Şeirlərin poetik tutumundan, orijinal bədii səciyyəsindən duyulur ki, müəllif öz məzmunu ilə seçilən maraqlı və mənalı bir yaradıcılıq yolu keçib. Sövkət xanımın şeirlərində millətə, yurda, vətənə, doğma ocağa bağlılıq hissi məxsusi poetika ilə səciyyələnir. Milli-mənəvi dəyərlərin, intizar, həsrət dolu sevginin, ləyaqət və insanpərvərlik duyğularının bədii tərənnümü onun poetik nümunələrində səmimi bir kaloritdə öz ifadəsini tapır. Onun şeirlərində zaman, təbiət, insan amili bədii təfəkkürün tərkib hissəsi kimi çıxış edir və hər bir poetik nümunəsi bu kontestdən səciyyəvidir. İstedadlı şairin poetik məfkurəsi milli düşüncənin geniş üfüqlərini əhatə edir. Sövkət Zərinin poetikasının lokomativi vətənpərvərlik mövzusudur və bu fakt bədii-fəlsəfi dəyəri ilə onun yaradıcılığına böyük sanbal gətirib. Onun şeirləri bədii-ictimai siqləti ilə sevilir və oxucunu düşündürür.

Şairin lirikasında həsrət və qəm motivlərinin yeknəsəkliyi, sentimental notlar, gərəksiz pafos heç vaxt duyulmur. Onun şeirlərində vətənin, valideyn-övlad məhəbbətinin, doğma ocağın tərənnümü, həmçinin xeyirxahlıq, nəciblik, əzəmət və gözəllik duyğularının bədii müstəvidə səmimi təbliği, bütövlükdə yaradıcılığına dərin ictimai-fəlsəfi mündəricə gətirir.

Doğma yurdu Cəbrayılın uzun müddət işğalda olması onun sənətkar qəlbini həmişə göynədib. Vətəndaşlıq yanğısı ilə qələmə aldığı bütün şeirləri yurd həsrətinə bələnib.

Onun poetik nümunələri ciddi ədəbi axtarışlardan doğan uğurun səciyyəsidir. "Yellərə sarı", "Bənövşələr hay verən yerə", "Payız fəslinə", "Mən olacağam", "Sənlə gedirəm", "Şəhidlik zirvəsində", "Bahar sevdası", "Köksümə sığınıb gecə", "Bir payız axşamı", "Sinəm vətənləşəcək", "Səni xatırlayıram", "Beşik" və s. şeirlər poetik təravəti, bədii ümumiləşdirməsi və müasirlik ruhu, çağdaşlığı ilə diqqəti cəlb edir. Sadaladığım bu şeirlərin hər birinin özünəməxsus poetik sanbalı var.

Sövkət Zərinin qan yaddaşında ulu türk ruhunun poetikası çox önəmli səciyyə daşıyır.

*Nola, zalım fələk insafa gələ,*
*Bu bəndi-bərəni aradan silə.*
*Quş kimi qol açam, sevinə-gülə,*
*Gedəm o əzəlki illərə sarı.*

Şeir - həyat həqiqətlərinin, duyğuların, düşüncələrin bədii-fəlsəfi, poetik həqiqətə çevrilməsi hadisəsidir. Və bu bədii-fəlsəfi məqam misralarda əyaniləşir. Bədii nümunənin məzmunundan asılı olmayaraq, şairin hər şeirindən yurd nisgili əsinti kimi keçir.

*Mən səni götürüb hayana gedim,*
*Orda özüm olum, bir də sən, könül?*
*Ümidsiz bu dərdə tapaq əlacı,*
*Taleyə qəhr edib inciyən, könül...*

Şeir - duyğuların dilində danışan adam kimidir. Onunla danışmaq, yaxud onu danışdıra bilmək hər iki müsahibin məharətindən, daxili aləminin zənginliyindən asılıdır. Sövkət Zərinin şeirləri çox maraqlı, kövrək ruhlu, səmimi müsahibdir.

Lirik qəhrəmanın məhəbbət, sevgi axtarışları, onun imtahanlardan, emosional sarsıntılardan keçən və möhkəmlənən insani keyfiyyətlərinin təsdiqini, həm də şeirlərin məzmun və mündəricəsini təşkil edir.

*Sən yox ikən mən də*
*Yalnızlığıma sarıldım,*
*Yoxluğuna darıldıqca, darıldım.*
*Yazdığım şeirlər də*
*Yalnızlıq saçır.*
*Xatirələr də hər an, hər saat*
*Məndən qaçır.*
*Bilmirəm, nədən ağrılarım*
*Min rəngdə çıxır ürəyimdən?*
*Qayıtmağını elə bil gözləyirəm.*
*Bəlkə gələsən,*
*Məni yalnızlığa qısqanasan,*
*Alasan əlindən.*

Lirik qəhrəmanın daxili aləminin, sevgi hisslərinin, məhəbbət iztirablarının ifadəsi onun söz palitrasında yeni rənglər, yeni çalarlarla üzə çıxır.

Şair ruhunun güzgüsüdür lirika. Çox zaman bu lirik nümunələr qələm sahibinin həyat və cəmiyyət haqqında düşüncələri, fərdi xarakteri, həmçinin şəxsiyyəti barədə dolğun təəssürat yaratmağa imkan verir. Lirik əsərlər obyektiv gerçəklik haqqında şair duyğularının obrazlı ehtivasıdır. Unutmaq lazım deyil ki, şeirin, bütövlükdə lirik əsərlərin bədii sanbalını təmin edən



başlıca amillərdən ən önəmlisi səmimiyyətdir. Bu misralarda olduğu kimi:

*Bir beşik eyvanda asılı qaldı,*
*Nə eyvan danışdı, nə beşik dindi.*
*Tarixin şahidi köhnə beşikdən,*
*Körpə hənirtisi bir gün kəsildi.*

Sövkət Zərinin şeirlərində ictimai, mənəvi, əxlaqi tamlıq və halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii-estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyyətli rol oynayır. Bu poeziyanın ən səciyyəvi xüsusiyyətlərindən biri onun müasirliyidir.

*Bir payız şeiri yazdım bu axşam,*
*Sapsarı misralar düzüldü bir-bir.*
*Payız sükutunda azdım bu axşam*
*Payız ovqatına bələndi ömür.*

*Bir həsrət kövrəltdi şairliyimi,*
*Qələm söz dilində dərdi ağladı.*
*Tale sevincimi haram buyurub,*
*Kədəri canımda gizli saxladı.*

Bu şeirdə şairin poetik ovqatının payıza kökləndiyinin bədii mənzərəsini görürük və misralardan payız qoxusu duyulur.

Şairin yaradıcılığındakı lirik qəhrəmanın vətəndaşlıq mövqeyi, yurdsevərliyi, fəallığı mühüm önəm daşıyır. Onun poetik nümunələrində təqdim olunan vətən məhəbbəti, inam və xeyirxahlıq duyğuları, həmçinin yurd ağrısı bütövlükdə onun vətəndaş şair obrazının ehtivasıdır.

*Yağmalanan obam hanı,*
*Odda yanan odam hanı?*
*Qardaş getdi, atam hanı,*
*Günəşsiz, günsüz olmuşam.*

Sövkət Zərinin nasir kimi özünəməxsusluğunun, orijinallığının heyranlıq doğuran cəhətləri kifayət qədərdir. Onun nəsrimizi zənginləşdirən povest və romanlarında bədii dil xalqın milli xarakterinin və təfəkkür zənginliyinin başlıca amili kimi böyük səciyyə daşıyır. Canlı xalq dilinin zəngin xəzinəsinə dərindən bələd olması, sözün ifadə imkanlarından geniş surətdə faydalanmağı bacarması nasir məharətinin diqqətəlayiq cəhətləri sırasındadır. Onun "Tale yolu" romanı və "Əbədiyyətə qədər" povesti yazıçı məharəti ilə yanaşı, həm də yüksək vətəndaşlıq, vətənpərvərlik keyfiyyətlərinin bədii inikasıdır. Müəllifin təsvirindəki realizmin gücü bir tərəfdən həyat hadisələrini dərindən müşahidə etməsində, həyat materialını gözəl bilməsindədirsə, digər tərəfdən bədii sözün qüdrəti ilə səmimi, təbii detallarla sənət müstəvisində sənətkar səriştəsi ilə canlandırmasındadır. Möhkəm süjet xətti mühakimələrin bazisinə, təməlinə çevrildiyi üçün bədii mətləb qəhrəmanın taleyində səciyyəviliyi ilə reallaşır və əsərin emosional cazibədarlığı, həm də ideya-bədii mündəricəsi dolğunlaşır. Yazıçının həyatı realist boyalarla əks etdirmə bacarığı təsvir imkanlarındakı dəqiqlik və konkretlik məharəti bədii surətlərin zahiri görkəmində və lokal epizodların təsvirində də dərin maraq doğurur.

***"Şıdırğı yağış kəsmişdi. Bayaqdan yaxın-uzaq xatirələrin əlində çırpınan Qasım ağanın beyni də sakitləşmişdi. Ona elə gəldi ki, Fatma elə indicə içəri girəcək, sürüşüb düşən yorğanı oğlunun çiyninə çəkəcək, alnından öpüb onları nahara çağıracaqdı. Qasım ağa bir az qulaq asdı. Navalçadan düşən tək-tək damcı səsindən başqa heç nə eşitmədi". ("Tale yolu" romanı).***

Hadisə və surətlərin təsvirindəki kiçik təfərrüatların əhəmiyyəti ondadır ki, hər bir detal müəyyən lövhəni səciyyəvi əlamətlərlə tamamlayır, onun müxtəlif cəhətlərini işıqlandırır. Bu kontekstdə müəllifin əsərlərindəki bədii dil faktoru böyük önəm daşıyır. Sövkət Zərinin bədii dili öz xəlqiliyi və əlvanlığı, emosionallığı və lakonizmi, fəlsədi zənginliyi və dolğunluğu, həmçinin estetikası və dinamizmi ilə diqqət çəkir.

"Hər şey yoldan başlayır, yolda da qurtarır. Nahaq yerə ulu peyğəmbərimiz deməyib ki, ev doğulub ölmək üçün, yol isə yaşamaq üçündür. İnsan oğlu həyata gəldiyi gündən ruhunun kölgəsinə çevrilib, gözəgörünməzin, dərkolunmazın dərgahına doğru yolun axarını, səmtini axtarır. Özünə yol gəzir, yol seçir. Özü boyda sirli-sehirli dünya çarxını fırlada-fırlada öz qanunu ilə hərəyə bir yol açır, hər kəsi bir yolun yolçusu eləyir. Həyat yolu, mübarizə yolu, el yolu, Tanrı yolu, tale yolu..." ("Tale yolu" romanı)

***Yazıçının dilindəki bədii-fəlsəfi siqlət, sənətkarlıq səriştəsi onun kolоritli təsvir və təhkiyə üsullarında məxsusi olaraq görünür. Bədii inikasın təmərküzləşdirilməsi, problemin qabarıq detallarla, əlvan boyalarla işıqlandırılması, həm də simvolik ümumiləşdirmələrə geniş imkan yaradılması nasirin dəst-xəttinin, yazı manerasının önəmli komponentləri kimi çıxış edir.***

Bu cümlələr sadəcə təsvir elementi deyildir. Burada qədim bir obanın, bir elatın yaddaşı, ulu bir ruhun həniri duyulur. Dədə Qorqud ovqatlı qədim bir tarix, zəngin bir etnoqrafiya boylanır bu cümlələrdən.

Xarakter təkcə insanın psixoloji durumunun göstəricisi deyil, o həm də təbiətdəki bütün canlı və cansız varlıqlara da şamildir. Bu baxımdan yazıçı zaman kontekstində hadisələri təsvir etməklə, həmçinin təsvirin trayektoriyası ilə onların xarakterini də bir növ əks etdirir. Milli kimliyin təravətini, özəlliyini, bununla yanaşı böyük bir etnoqrafik gözəlliyi məxsusi səliqəylə, səmimi və təbii doğmalıqla bir neçə cümləyə sığışdıra bilmək məharəti həqiqi yazıçı qüdrətinin bədii təsdiqidir.

"Oğlan tutuquşu kimi dil boğaza qoymur, bir sözdən başqasına keçir, zirzəminin alaqaranlığında o boşa-bu başa var-gəl eləyirdi.

***- Ə, nə sayıqlayırsan, görmürsən qalxa bilmirəm, qolumdan tutsana - deyə üstünə qışqırdım. Mən hələ bir şey eləməmişəm, ona da qiymət istəyəm. Bu bizim hər birimizin torpaq qarşısında borcudur. Qaç, Məcidlinin kimliyini öyrən, mənə de. Danışmaqdan çox iş görmək lazımdır. Bayaqdan boş-boş çərənləyirsən". (Əbədiyyətə qədər" povesti)***

Yazıçı əsərdə qan yaddaşının itməməsini səmimi və inandırıcı faktlarla sənət müstəvisində canlandırır və bədii həyat həqiqətinin bədii həqiqətə çevrilməsini sübut edir. Beləliklə, müəllif diqqəti hadisə və surətlərin mahiyyətinə, məzmununa istiqamətləndirərək, bədii həqiqətin həyat həqiqətinə çevrilməsinin bədii-fəlsəfi və psixoloji formulunu ortaya çıxarır.

Reallıq duyğusunun və vətənpərvərlik hissinin zənginliyi, həyat hadisələrinin təbiiliyi və inandırıcılığı, üslub özəlliyi və yazıçı təhkiyəsi çox maraqlıdır.

"Tale yolu" romanı təkcə Sövkət Zərin yaradıcılığının deyil, klassik roman ənənələrini inkişaf etdirən əsər kimi səciyyələndirsək, demək olar ki, bu əsər üslubi keyfiyyətləri, bədii-fəlsəfi və psixoloji manerası ilə nəsrimizin maraqli nümunələrindəndir.

Onu da qeyd edim ki, Sövkət Zərinin nəsrində maraqlı ola biləcək bir çox milli düşüncə elementləri ilə yanaşı, müəllifin bədii-fəlsəfi ümumiləşdirməsindəki bəşəri mətləbin bətnində vətənpərvərlik duyğularının modern poetikası maraq doğurur. Sövkət Zərinin nəsr əsərlərində də şair poetikasının rəngarəng çalarları duyulur.

**Tanınmış şair və istedadlı yazıçı Şövkət Zərinin əsərləri ədəbiyyatımızı zənginləşdirən dəyərli nümunələr sırasındadır. Görkəmli qələm sahibinə yeni yaradıcılıq uğurları arzulayıram.**

**Balayar Sadiq**

"Spartak Peşəkar İdman Klubu MMC"-nin 23.11.06 il tarixli, 1700868661 saylı Dövlət Qeydiyyat Şəhadətnaməsi və 01.05.08 tarixli Nizamnaməsi itdiyi üçün etibarsiz sayılır.

İkram Kərimov, Fuad Cavadov və Adil Minbaşı Azərbaycan prokurorluğunun veteranı, Baş Ədliyyə Müşaviri

**Aydın Mahmudovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fidan Nizaməddin qızı Şərqiyyə və Məhərrəm Aslanovlara əzizləri

**Rüstəm kişinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.